

## Quşlar arasında xəstəliyə qarşı mübarizə və profilaktika tədbirləri

- **Mövsümi monitorinqlər** həyata keçirilməlidir.
- **Ev quşlarının** miqrasiya edən **köçəri quşlarla təmasına** yol verilməməlidir.
- Yem anbarlarında yem **təmiz saxlanılmalı**, **vəhşi quşlar** və ya **gəmiricilərin** yem ilə təmasına yol verilməməlidir.
- Təsərrüfatda **baytarlıq-sanitariya tədbirləri** gücləndirilməlidir.
- **Xəstəlik aşkar edilmiş** təsərrüfatlarda bütün quşlar **qansız üsulla** məhv edilməlidir.
- Təsərrüfatda **dezinfeksiya işləri** aparılmalı, **quş zılı** və **yem qalıqları** termiki zərərsizləşdirilməlidir.
- Xəstəlik aşkar edilmiş təsərrüfatlarda **karantin tədbirləri** həyata keçirilməlidir.

**DİQQƏT!**

Quş qripi ilə xəstələnmiş **quşlar müalicə olunmur!**

**UNUTMAYIN!**

**Quş qripi insanlar üçün təhlükəlidir.** İnsanlar bu xəstəliyə yoluxmuş quşlarla və onların məhsulları ilə təmasda olduğu zaman yoluxa bilər.

**Həyətlərinizdə, yolların kənarında və digər sahələrdə ölü quş cəmdəyinə rast gəldiyiniz halda dərhal baytar həkiminə məlumat verin.**

**1003**
Çağrı mərkəzi


+994 12 377 00 77
1003
info@afsa.gov.az
www.afsa.gov.az




AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

AQTİ
AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ İNSTITUTU

# QUŞ QRİPİ VƏ ONA QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

# Quş qripi nədir və necə yayılır?

- Yüksək patogenli quş qripi müxtəlif növ quşların iti gedisli, yüksək kontagioz virus xəstəliyidir.
- Xəstəliyin əsas yayılma mənbəyi xəstəliyə yoluxmuş və daşıyıcı köçəri quşlardır.
- Xəstəliyə yoluxmuş quşlar tənəffüs yolu, ağız suyu və digər ifrazatlarla virusu ətrafa yayır.
- Hava axını ilə xəstəliyin yayılması daha sürətli baş verir.



# Quşlarda quş qripinin simptomları hansılardır?

- Yüksək hərarət və süstlük
- İştahsızlıq və tüklərin pırpızlaşması
- Dimdik və burun dəliyindən maye axıntısı
- Tənəffüsün çətinləşməsi və xırıltılı olması
- Pipik və saqqalın sianozlaşması (göyərməsi)
- Mədə-bağırsaq və sinir sistemində pozğunluq

**DİQQƏT!**

Kütləvi tələfat xəstəliyin **əsas əlamətlərindəndir!**



# İnsanlarda quş qripinin simptomları hansılardır?

- Yüksək hərarət və halsızlıq
- Tənəffüsün çətinləşməsi və təngnəfəslik
- Ürək və qan dövranı sistemində pozğunluq
- Oynaqlarda kəskin ağrılar
- Mədə-bağırsaq və sinir sistemində pozğunluqlar

**UNUTMAYIN!**

**Quş qripinə yoluxmaya şübhəniz** yaranarsa dərhal həkimə müraciət edin!